# Qarşılıqlı maraqlara əsaslanan əməkdaşlıq

Azərbaycanın müstəqillik əldə etməsindən sonra onun xarici siyasətinin mühüm istiqamətlərindən birini Rusiya ilə münasibətlər təşkil etmişdir. Bu ay müstəqilliyinin ildönümünü qeyd edən Rusiya Federasiyası ilə Azərbaycan Respublikası arasında diplomatik münasibətlər 1992-ci il aprelin 4-də Bakıda imzalanmış müvafiq protokol əsasında qurulmuşdur. Bu münasibətlər qarşılıqlı maraqlara əsaslanır. Məhz elə həmin ildə Azərbaycanın Rusiyada, Rusiyanın isə Azərbaycanda səfirlikləri öz fəaliyyətinə başlamışdır. Belə bir şəraitdə 1993-cü ilin yayından müstəqil Azərbaycana rəhbərlik etməyə başlayan



Heydər Əliyev Rusiya ilə dostluq münasibətlərinin qurulmasında mühüm rol oynadı, ölkələrimiz arasında strateji tərəfdaşlığın əsaslarını qoydu.

Azərbaycanın xarici siyasətində ən çox fəallıq onun şimal qonşusu ilə münasibətlərində müşahidə olunmuşdur. Bunu da siyasi, iqtisadi, regional və mədəni amillər zəruri etmişdir. Təsadüfi deyil ki, ötən müddət ərzində dövlət və hökumət başçılarının onlarca işgüzar səfərləri baş tutmuşdur.

1995-ci ildə ölkədə xarici iqtisadi əlaqələrin liberallaşdırılması və bazar prinsipləri əsasında yenidən qurulmasına başlanması iki ölkə arasında digər sahələrlə yanaşı, iqtisadi əlaqələrin də inkişafına təkan verdi. Bunun məntiqi davamı olaraq 1996-cı ildən iqtisadi əməkdaşlığa dair Azərbaycan-Rusiya hökumətlərarası komissiya öz fəaliyyətinə başladı.

İki ölkə arasında mövcud olan və daima inkişaf edən müqavilə — hüquq bazasının başlıca strateji xarakterli sənədi "Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında" 1997-ci ildə imzalanmış müqavilə oldu. Həmin müqavilə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Moskvaya etdiyi rəsmi səfəri çərçivəsində imzalanmışdı.

İki ölkə arasında təkcə iqtisadi sahədə 30-dan çox sənəd imzalanmışdır. Son 5 ildə 5 mindən çox iş adamının iştirakı ilə 30-dan artıq iqtisadi tədbir keçirilmişdir. İndiyədək 14 iclası keçirilmiş Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında iqtisadi əməkdaşlıq məsələləri üzrə Hökumətlərarası Dövlət Komissiyası ölkələrimiz arasında iqtisadi əlaqələrin genişlənməsinə öz töhfəsini verir. Rusiya Federasiyasının 4 subyekti ilə ölkəmiz arasında hökumətlərarası komissiya fəaliyyət göstərir, bir sıra subyektləri ilə isə iqtisadi-ticarət, elmi-texniki və mədəni sahələrdə sazişlər imzalanmışdır.

2006-cı ilin mart ayından Bakıda Rusiya Federasiyasının Ticarət nümayəndəliyinin fəaliyyətə başlaması qarşılıqlı ticarət mübadiləsinin artmasına müsbət təkan oldu. Azərbaycanın MDB ölkələri ilə ticarət dövriyyəmizin 50 faizdən çoxu Rusiyanın payına düşür. Burada maşın və avadanlıqlar, ərzaq malları, bir sözlə, həm Azərbaycan iqtisadiyyatı, həm də Rusiya iqtisadiyyatı üçün həyati əhəmiyyətli məhsullardan söhbət gedir.

Azərbaycanın Rusiyaya ixrac etdiyi malların strukturunda son zamanlar mineral məhsullar (ixracatın ümumi həcminin 53,3 faizi) üstünlük təşkil edirdi. Ərzaq mallarının və kənd təsərrüfatı xammalının xüsusi çəkisi 19,1 faizdir. Ərzaq malları və kənd təsərrüfatı xammalı qrupuna daxil olanlar piy və yağlar, onların fraksiyaları, ağ qənd və təmiz saxaroza, meşə qozları, fermentləşdirilmiş qara çay, tər meyvə və tərəvəzlər, şərab-konyak məhsullarıdır.

Rusiya Azərbaycanın əsas ticarət tərəfdaşlarından biridir. Hazırda Azərbaycanda Rusiya kapitallı şirkətlər, Rusiyada isə Azərbaycan şirkətləri uğurla fəaliyyət göstərirlər. Azərbaycanda Rusiya kapitalı əsasında 570 şirkətin fəaliyyət göstərməsi böyük göstəricidir. Buraya "LUKoyl" neft şirkəti, "Baltika" pivəbişirmə şirkəti, bank-maliyə sektorunda "Nikoyl" investisiya-kommersiya bankı, Vneştorqbank (VTB) açıq səhmdar cəmiyyəti, "Rosselxozbank" bankı və digər müəssisələr daxildir.

Azərbaycan bazarında 300-dən çox birgə müəssisə də fəaliyyət göstərir. Sənaye sahəsində Azərbaycanda bentonit palçığını istehsal edən Rusiya-Azərbaycan birgə müəssisəsinin adını çəkmək olar. 2015-ci ilin fevralında Gəncə avtomobil zavodunda "KamAZ" markalı avtomobillərin yerli şəraitdə sənaye yığımının təşkili ilə bağlı iki ölkə arasında müqavilə imzalanıb. Bu məqsədlə zavodda qısa müddətdə yeni yığım xətti quraşdırılıb və ilk "KamAZ" avtomobillərinin yığımı təşkil olunub. Xəttin istehsal həcmi ildə 1500 avtomobildir.

Son zamanlar Azərbaycanın işgüzar dairələrində rusiyalı tərəfdaşları ilə sərmayə əməkdaşlığına maraq artır. "Azərsun Holding" şirkəti 2010-cu ilin sentyabr ayında Beloreçensk şəhərində (Krasnodar vilayəti) çay çəkib bölmə fabrikini işə salmışdır. Şirkət hazırda ildə 50 milyon şərti banka gücündə meyvə-tərəvəz məhsullarının emalı üzrə konserv zavodunun layihəsini həyata keçirir.

Rusiya və Azərbaycan arasında ticarət-iqtisadi əlaqələrin inkişafında regionlararası əməkdaşlıq vacib rol oynayır. Rusiyanın 70-dən artıq regionunun Azərbaycanla əməkdaşlıq etdiyini qeyd etmək lazımdır. İki ölkə arasında ticarət dövriyyəsinin 81,8 faizi məhz bu regionların payına düşür.



Azərbaycanla Şimali Qafqaz federal dairəsi arasında ticarət dövriyyəsinin 80 faizdən çoxu Dağıstanın payına düşür.

Hazırda Rusiya Federtasiyasının 18 subyekti Azərbaycan Hökuməti ilə əməkdaşlıq haqqında hüquqi tərtib olunmuş sənədlərə malikdir. Tatarıstanın və Dağıstanın nümayəndəlikləri Azərbaycanda fəaliyyət göstərirlər. İki ölkə arasında hərbi-texniki sahədə də fəal əməkdaşlıq müşahidə olunur.

Qarşılıqlı ticarət-iqtisadi əlaqələrin güclənməsində Rusiyada və Azərbaycanda fəaliyyət göstərən diasporların rolu da qeyd olunmalıdır. Rusiyada Azərbaycan diasporunun mövcudluğu və fəaliyyəti də iqtisadi əlaqələrin güclənməsinə müsbət təsir göstərən amillərdən biridir.

Ümumiyyətlə, Azərbaycan-Rusiya ticarət-iqtisadi əməkdaşlığının güclənməsi iki dövlət arasında siyasi münasibətlərin daha da yaxşılaşmasına əhəmiyyətli təsir göstərir.

**Atamoğlan MƏMMƏDLİ,**
**BDU-nun dosenti.**